# Eger Yarımı Görson Sende Halvet

— *faramarz-abdollahpur* · 04 Ekim 2024



Əgər yarımı görson səndə xəlvət
Denən ey bi'vəfa vey bi'mürüvvət
Yaxam olmış əlundan parə parə
Ki tikməm ta çata ruze qiyamət
⚓
O nəxlə bənzərəm barın çalıplar
O viranə ki gəncin xəlq talıplar
O zali tək elə qan ağlaram mən
Ki namərdlər əzizin parçalıplar
⚓
Könül dur tutgınan yarın əlindən
Ziyarət etginən qarə telindən
Mühəbbətlə yaşayış başla ta xalx
Desinlər razıdır bu sövgülindən
⚓
Bu dünya yolçısı adım qələndər
Nə xanım var nə manım var nə ləngər
Günüzlər dağ daşı yorğun dolannam
Gecə bir kərpuc üstə mən qoyam sər

⚓

Əgər lalsan əgər karsan əgər kor
Gəlip axir çatacaqsan ləbe gor
Ürək öz canivə bir rəhm eylə
Ki qurt'quş süfrə etmiş eyliyər sur